**UOT 908 (479.24)**

# NİZAMİ GƏNCƏVİNİN VƏQFİ

***Allahverdiyev Namlet Əli oğlu, Əliyeva Mətanət İkram qızı, Həsənova Röya Asif qızı, Abdullayeva Ruziyyə Akif qızı***

***AMEA Gəncə Bölməsi, Diyarşünaslıq İnstitutu***

***namletallahverdiyev@gmail.com***

***metanet_aliyeva_2016@mail.ru***

**Xülasə:** *Məqalədə dahi şair və mütəfəkkir Nizami Gəncəviyə böyük hökmdarlar tərəfindən hədiyyə edilən mülklərdən şairin ölümündən sonra insanlara təmənnasız xidmət etmək üçün vəqf kimi istifadə edilməsi, bu vəqflərdən qəriblərin, müsafirlərin, kasıbların və digər ehtiyacı olanların uzun illər ərzində yararlanması haqqında məlumatlar toplanmışdır.*

**Açar sözlər:** Nizami, Gəncə, Həmidunyan, vəqf, məscid

**Key words:** Nizami, Ganja, Gamidunian, foundation, mosque

**Ключевые слова:** Низами, Гянджа, Гамидунян, фонд, мечеть

**Giriş.** Vəqf məsələsi tarixşünaslıqda az öyrənilmiş mövzulardan biridir. Vəqf ərəb mənşəli söz olub "savab iş üçün ayrılmış bir mülk və ya malın bu məqsəd üçün ayrılmasıdır" (1,47), başqa sözlə desək, vəqf xeyriyyəçiliyin müəssisləşmiş şəklidir.

"Vəqf dini və ya xeyriyyə məqsədilə dövlətin, yaxud ayrı-ayrı şəxslərin könüllü bağışladığı daşınar və daşınmaz əmlakdır" (2,457).

Məqaləni hazırlamaqda məqsəd vəqflər, onların xüsusiyyətləri, ilkin yaranma tarixi və dahi mütəfəkkirimiz Nizami Gəncəviyə bağışlanan mülkün vəqf olaraq xeyriyyəçilik işləri haqqında tədqiqat aparmaqdır.

***Mövzunun aktuallığı.*** Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli Sərəncamı ilə "2021-ci ilin Nizami İli" elan olunmasını əsas tutaraq dahi söz ustadına yaratdığı ölməz əsərlərinə müqabil böyük hökmdarlar tərəfindən bağışlanılan mülklərin şairin ölümündən sonra xeyriyyəçilik məqsədilə vəqf elan edilməsi və uzun dövrlər ərzində ehtiyacı olanlar, qəriblər, müsafirlər və digər xeyriyyə işləri üçün istifadə edildiyini tarixi faktlarla üzə çıxarmaq, dahi şairin adının bu xeyriyyə işlərində daim xatırlanması bu gün ilə səsləşir ki, bu da tədqiq etdiyimiz mövzunun aktuallığından xəbər verir.

***Mövzunun elmi yeniliyi və əhəmiyyəti.*** Vəqflər haqqında dolğun məlumat yaratmaq üçün onların tarixinə nəzər salmaq vacibdir. Qeyd edək ki, ilk vəqflər məhz İslam dünyasında yaranmışdır. İslam aləmində əhəmiyyət kəsb edən ictimai və iqtisadi həyat üzərində dərin izlər buraxmış vəqfin dünyada ilk dəfə dini məqsədlərlə ortaya çıxdığını və zaman keçdikçə insani, mədəni və ictimai olmaq üzrə müəyyən qisimlərə ayrıldığının şahidi oluruq. İslam dünyasında vəqflərin geniş inkişaf etməsində Həzrət Muhəmməd Peyğəmbərin (s.ə.s) böyük xidmətləri olması barədə xeyli məlumatlar var. Həzrət Muhəmməd Peyğəmbərin (s.ə.s) "Üsvayi-Həsənə"(Gözəl nümunə) olaraq "Fədək" və "Xeybər" döyüşlərində ona məxsus olan xurma ağacları meyvələrindən Allah yolunda kasıblara, şikəstlərə, yolda qalan müsafirlərə pay vermişdi. Peyğəmbərin bu xeyirxah əməlindən nümunə götürən Əli və Ömər də sahib olduqları hər bir xurmalığı Allah yolunda ehtiyacı olanlara vəqf etdilər. İslam aləmində kitabxana, mədrəsə, məscid, kəhrizlər, bulaqlar, mehmanxanalar, su quyuları, ərzaq mağazaları, təkiyə və zaviyələr də vəqf olunurdu."Vəqf yerlərində yığılan gəlir vəqf qoyan şəxsin arzusuna uyğun olaraq məscid, mədrəsə, müalicə müəssisəsinin ehtiyaclarına və s. xərclənməli idi" (2,457).

Osmanlı tarixində "Fatehun vəqfləri haqqında bir yazıda bildirilmişdir: "İstanbulun Fatehi, Allahın aciz bəndəsi Fateh Sultan Mehmed (1432-1481), alnının təri ilə qazandığı

pulla satın aldığı İstanbulun "Daşlıq" məntəqəsində sərhədləri məlum olan ərazidə 136 ədəd dükanı aşağıdakı şərtlərlə vəqf edirəm.

"Bu daşınmaz əmlaklardan əldə ediləcək gəlirdən İstanbulun hər bir küçəsinə ayrı-ayrı iki nəfər təyin edirəm. Bunlar əllərində bir qab, içində kirəc tozu (gilli toz) və kömür külü olduğu halda günün müəyyən saatlarında küçələri gəzərlər. Həmin küçələrdə yerə tüpürənlərin tüpürcəklərinin üzərinə bu tozu tökərlər ki, xəstəlik yayılmasın. Əvəzində 20 axça zəhmət haqqı alarlar. Bundan başqa, 10 cərrah, 10 həkim, 3 tibb qardaşı yara sarıyan təyin eylədim. Bunlar hər ayın müəyyən günlərində İstanbulda qapıları döyər və evdə xəstə olub olmadığını soruşarlar. Əgər sağalması mümkündürsə, müalicə edib sağalmasına səbəb olarlar. Şəfası mümkün deyilsə, onlardan heç bir əvəz gözləmədən "Darül-cəzə"yə ( Qocalar evi) aparıb, rahatlıqlarını təmin edərdilər. Dövlətdə ərzaq qıtlığı baş versə, belə vəziyyətdə istefada olan 100 nəfər silahlı əsgər quşların yumurta qoyma və ya bala çıxarma vaxtında olmadıqları zaman ov edərlər ki, xəstələrə qida kimi paylasınlar. Sahib olduğum bina və inşa etdirdiyim imarətxanada şəhid ailələri və İstanbul şəhərinin kasıbları əvəzsiz yemək yeyərlər. Ancaq yemək yeməyə və ya aparmağa bilavasitə özləri gəlməyənlərin yeməkləri günbatandan sonrakı qaranlıqda və heç kim görmədən qapalı qablar içində evlərinə aparılır".

Gəncə şəhərində müxtəlif vaxtlarda bir neçə vəqf evləri - məscidlər, mədrəsələr və kəhrizlərin olduğu tarixdən bizə məlumdur. Gəncədə I Uğurlu xanın tikdirdiyi karvansaray, Xan arxı, I Şah Abbasın tikdirdiyi Came məscidi, karvansaray, bazar, mədrəsə, Hacı Bağırın çəkdirdiyi "Hacı Bağır kəhrizi" dediklərimizə misal ola bilər. 1725-ci ildə Gəncəni işğal edən Osmanlı dövləti burda bir sıra vəqflərə sahib oldu. Osmanlı Sultan III Əhməd (1673-1736) "Gəncəbasana tabe olan Qızıl qaya kəndi (Üçtəpə çayı (arxı) kənarında olan bu kənd) Həzrəti Şəhriyarın (III Sultan Əhmədin) Gəncədəki camesinin vəqflərindən idi" (3,62). Bundan əlavə Sultan III Əhmədin Gəncədə Ocaqlı kəndi, Dinaraş məzrəsi, Gəncəbasana tabe olan İmamlı kəndi (məhəlləsi), Ağa Almas kəhrizi yaxınlığında yerləşən bu kənd (məhəllə) Həzrəti Şəhriyarın (III Sultan Əhmədin) Gəncədəki camesinin vəqfi idi (3,50).

XIX yüzillikdə Gəncədə Hacı Sait, Hacı Hüseyn məscidləri, Hacı Qədimin, Qalaların kəhrizi, XX yüzilliyin başlanğıcında Haci Mirqasımın kəhrizi vəqf məqsədi ilə 1914-cü ildə çəkilmişdir. Gəncə bələdiyyəsinin sədri Əsgər Ağa Gorani şəxsi vəsaiti ilə Gəncədə iki qız məktəbi, bir xəstəxana açdırmışdır.

Vəqflər haqqında xeyli məlumatlar var. Bizim üçün ən maraqlısı Nizami Gəncəvinin Gəncədəki vəqfləridir.

"XII əsrin başlanğıcından XVII əsrədək dahi Nizaminin vəsiyyəti üzrə yaradılmış vəqflər mərkəzi bir neçə əsr öz fəaliyyətini davam etdirmiş, həm xalqa xidmət göstərmiş, həm də böyük şairin adını əbədiləşdirən bir qaynaq olmuşdur" (4,162). Osmanlı dövləti 1588-ci ildə Gəncəni işğal edəndə 1588-1593-cü illər arasında beş ildə "Gəncə-Qarabağ əyalətinin icmal dəftəri" (siyahıyaalma dəftəri) tərtib etdilər. İcmal dəftəri əyalətin inzibati-ərazi bölgüsü haqqında ətraflı məlumatlar verən yeganə məlumat mənbəyidir. İcmal dəftərində Nizamiyə aid vəqflər haqqında məlumatlar var. Şeyx Nizami vəqfi 1187-ci ildə Atabəy Qızıl Arslan (1186-1191) tərəfindən hədiyyə edilmiş Həmdünyan kəndinin əsasında təşkil edilmişdir. Ümumiyyətlə, Nizamiyə bu kənddən əlavə də kənd bağışlanmışdır. Bu haqda Nizaminin "Xosrov və Şirin" əsərində ətraflı məlumat var. Bu məsələni aydınlaşdırmaq xatirinə biz şairin Qızıl Arıslanla olan görüşü zamanı deyilmiş sözləri əsas tutduq. "Xosrov və Şirin" əsərinin filoloji tərcüməsində Qizil Arslan Nizamidən soruşur:

Dünya şahənşahi qardaşım sənə
İllər uzunu zəhmət çəkib yazdığın o kitabın (əvəzində)
Cəvahirdən, xəzinədən nə əlmuzdu verdi?
Eşitdim, səni (yoxsulluqdan xilas etmək müşkülü atıb
Xalis mülkündən sənə iki kənd yazıbdır.
De görüm, o kəndi sənə verdilər, ya yox?

Kəndin fərmanını göndərdilərmi? (5-352).

Bu sorğunun qarşısında Nizami Qızıl Arslana dedi:

Bəli, o xoşbəxt şah öz xalis mülkündən
Bundan əvvəl buyurduğun şeyləri vermişdir.
Şah o iki kənddən birini verməlidir (5, 352).

Deməli, belə məlum olur ki, Cahan Pəhləvan Nizami Gəncəviyə "Xosrov və Şirin" əsərinə görə vəd etdiyi kəndin birini verib ikincini isə hələ verməmişdir. Bəs, Nizamiyə verilmiş o kəndin adı nədir? Harada yerləşir?

Görkəmli ədibimiz Firidun bəy Köçərli yazırdı: "...rəvayət olunur ki, İran padşahlarından birisi Azərbaycan vilayətini təskir etdikdə şeyxə riayət göstərib, Gəncə şəhərinin təxminən 24 verstliyində (25 km) cənubi-şərqi səmtində vaqe bir kənd bağışlamışdı. Sabiqdə həmin qəriyə Həmidunyan adlanırmış. İndi "İlə" adı ilə məşhur erməni kəndidir" (6,130).

Bizcə, Firidun bəy Köçərli xətaya yol verir. "Həmidunyan" kəndi "İlə" adlı kənd deyildir. 1187-ci ildə Atabəy Qızıl Arslan Şeyx Nizamiyə Həmidunyan kəndini bağışlamışdı. Bundan öncə isə Atabəy Məhəmməd Cahan Pəhlivan Nizami Gəncəviyə başqa bir kənd bağışlamışdır. Çox güman ki, bu kənd İlə kəndidir. İcmal dəftərində Həmidunyan kəndinin adı İlə kəndinin adından öncə çəkilir. Deməli, bu kəndlər ayrı-ayrı yerlərdə yerləşirmişlər. Bizim tədqiqatımıza görə İlə kəndi bugünkü "Yerkəş", "Mənəş", "Buzluq" kəndlərinin yerində olmalı idi. Yarımdağlıq ərazidə yerləşən bu səfalı kəndlərdə yerli camaat heyvandarlıqla məşğul olurdu. Gəncənin ruslar tərəfindən işğalından sonra həmin kəndlərə 1813-cü, 1828-ci illərdə ermənilər köçürülmüşdülər.

Şeyx Nizaminin vəqfləri haqqında ilk məlumatı tarixçi Fəxrəddin Kırzıoğlu vermişdi. Bu mövzu haqqında 25 fevral 1983-cü ildə mərhum akademik Həmid Araslı "Ədəbiyyat və incəsənət" qəzetində bir məqalə ilə çıxış etmişdi.

Biz Fəxrəddin Kırzıoğlunun yazısını olduğu kimi təqdim edirik:

"Bu vəqfin Atabəylər və Osmanlılar dönəmindəki durumları arasındakı fərq ilk öncə Atabəylər dönəmində Həmidunyan kəndinin gəlirinin büsbütün Nizami Gəncəviyə verilməsinə qarşılıq Osmanlılar dönəmində gəlirin tümünün (hamısı) deyil, yalnız bir qisminin verilməsində görünür. Həmidunyan kəndinin (XVI yüzilliyin sonlarına doğru bu kəndin adı "İlə" olaraq anılır. İcmal dəftərində "Həmidunyan" adı "İlə" adından sonra Nam (adı) deyimi yazılmışdı. Gəliri tam olaraq Şeyx Nizami vəqfinə təhsis edilməmişdir. Fəqət bununla bərabər Atabəylər dönəmində tək bir kənddən oluşan (ibarət olan) Şeyx Nizami vəqfinə Osmanlılar dönəmində daha bir kənd, bir məzrə, birər çəltik bostan, ciftlik zəmisi (taxıl zəmisi), Gəncə qalası içindəki iki nalbənd və birər qəssab və əkməkçi Habbaz (çörək bişirilən təndir), çörək dükanlarının illik gəlirinin cəmi və yenə qaladakı iki hücrənin gəliri də Şeyx Nizami vəqfinə təhsis edilmişdir.

Şeyx Nizami vəqfinin illik gəlirindən (17480 ağça) "taatiyyə" "tevliyyət", "civayet", qurban kəsilməsi üçün və ayrıca türbənin fərraş və türbədarının, Gəncə camesi müdərrisinin maaşları üçün illik gəlirin 86,5% (15120 ağça) ayrılmışdır. Gəlirin qalan 13,5%-ni isə türbənin onarın (təmiri) və aydınlatılması (işıqlandırılması) üçün kullanılmış olsa gərəkdir".

Məqalənin başlanğıcında qeyd etmişdik ki, Gəncə-Qarabağ əyalətinin vəqfinin durumu istənilən səviyyədə öyrənilməmişdir. Biz hörmətli professor Fəxrəddin Kırzıoğlunun yazısını aydınlaşdırmaq məqsədilə oxuculara anlaşılan səviyyədə təqdim edirik. "Nizamiyə bağışlanmış "İlə" və "Həmidunyan" kəndlərindən ancaq biri - "Həmidunyan" kəndi vəqf kimi ayrılmışdı. Kəndin bütün gəliri Allaha xatir ehtiyacı olanlara pulsuz paylanırdı. Bundan başqa onun aşağıdakı vəqfləridə var idi: Sahəsi göstərilməyən bir məzrədə çəltik, bostan bitkiləri və taxıl zəmisi var idi. Gəncə qalası içində olan 2 nalbənd, 2 qəssab və 2 çörək bişirmək üçün təndir, 2 çörək dükanı, Gəncəyə gələn müsafirlərin atının nallanmasından alınan zəhmət haqqı, qəssab dükanlarından gələn gəlir, bəzən kasıblara paylanan ət, Gəncəyə

gələn tacirlər, səyyahlar və s. müsafirlərin gecələmələri üçün qaladan kənar 2 hücrədən (otaq) gələn gəlirdən yığılan pulla ərzaq alınıb hər gün ehtiyacı olanlara gündə bir dəfə pulsuz yemək verilirdi.

Şeyx Nizami vəqfinin illik gəlirindən (17480 ağça) qurban kəsilməsi üçün və ayrıca türbənin fərraş və türbədarının - "Gəncə camisinin müdərrisinin məvacibləri üçün illik gəlirin 86,5%-i (15120 ağca) ayrılmışdı. Gəlirin qalan 13.5%-i isə türbənin digər xərcləri üçün ayrılmışdır".

***Qeyd*:** Ağça - 1328-1687-ci illərdə Osmanlı imperiyasında dövriyyədə olmuş gümüş pul. 1687-ci ildə ağçanın yerinə 120 ağça dəyərində olan "quruş" dövriyyəyə buraxılmışdı.

Məzrə - Sakini olmayan kəndlərin əkin yeri.

İcmal dəftəri - Siyahıyaalma dəftəri.

Verst - uzunluq ölçüsü. 1 verst təqribən 1060 metrə bərabərdir.

***Nəticə.*** Beləliklə, aparılan elmi-tədqiqat işinin nəticəsi olaraq bir daha sübut olunur ki, dahi söz ustadı, bütün dövrlərin mütəfəkkir şairı Nizami Gəncəvi sağlığında geniş zəkası, mütərəqqi dünyagörüşü, biliyi ilə təkcə yaşadığı dövrü deyil, əsrlər sonrakı insanların mənəvi cəhətdən zəngin, humanist, vətənpərvər, insanpərvər kimi yüksək mənəvi ideallar aşılamaqla bütün bəşəriyyətə xidmət etdiyi kimi, ölümündən sonra da onun adına olan vəqflərdən gələn gəlir də insanlığa xidmət etmişdir.

### *Ədəbiyyat*

1.Ərəb və fars sözləri lüğəti. Bakı, 1967
2.ASE. II cild. Bakı, 1977
3.H. Məmmədov. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Bakı, 2000
4.N. Axundov. Qarabağ salnaməsi. Bakı, 1989
5.Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı, 1982
6.F.Köçərli. Azərbaycan ədəbiyyatı. Bakı, 1978
7.Z.Bünyadov, H.Məmmədov. Nizami vəqfi haqqında sənədə dair. Ədəbiyyat qəzeti. 1983-cü il 25 fevral
8.Ə.Muxtarov. Nizami Gəncəvi obrazı bədii ədəbiyyatda. Gəncə, Elm, 2021.
9.Gəncə-Qarabağ vilayətinin icmal dəftəri. Bakı, Çaşıoğlu, 2010.

## ФОНД НИЗАМИ ГЯНДЖЕВИ

***Аллахвердиев Намлет Али оглы, Алиева Матанат Икрам кызы***
***Гасанова Роя Асиф кызы, Абдуллаева Рузийя Акиф кызы***

***Резюме***

В статье собрана информация об использовании имуществ Великого поэта и мыслителя Низами Гянджеви, подаренные могущественными правителями великому поэту, которое течение многих лет после смерти поэта использовалась в качестве фонда для бесплатного служения странникам (путниками), гостям, беднякам, а также нуждающимся.

## NIZAMI GANJAVI FOUNDATION

***Allahverdiyev Namlet Ali, Aliyeva Matanat Ikram, Hasanova Roya Asif,,***
***Abdullayeva Ruziyya Akif***

***Summary***

The article examines the property donated by the great rulers to the great poet and thinker Nizami Ganjavi, their use as a basis for free service to the people after the death of the poet; was collected information also on the long-term use of these funds by strangers, travelers, the poor people and others in need.

***Rəyçi: prof., əməkdar müəllim Həsənbala Sadıqov***
***AMEA-Gəncə Bölməsi Diyarşünaslıq İnstitutunun 8 may 2021-ci il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olma tarixi 10 iyun 2021-ci il***